Pyes CHARACTERS Müasir Dramaturgiya Hərəkatı EURODRAM – Avropanın dram əsərlərinin tərcümə şəbəkəsi ilə əməkdaşlıq çərçivəsində keçirilən CHARACTERS 2026 pyes müsabiqəsində 1-ci yerə layiq görülüb

**Jalə İSMAYIL**

# QUYUDA BİTƏN QAMIŞIN MONOLOQU

**(İsgəndərin buynuzu yoxmuş...)**

**İştirakçı: 30 yaşlarında kişi, adı olsun Ayaz**

*Gecə. Səmada bədirlənmiş Ay. Kiçik eyvanı olan köhnə bağ evi. Evin sağ tərəfində ağzı bağlı su quyusu var. Quyunun ətrafında bir neçə əncir, nar ağacı. Eyvan və həyət səliqəsiz vəziyyətdədir. Əşyalar sağa-sola dağılıb. Eyvanın önündə üstünə köhnə döşək qoyulmuş dəmir çarpayı, köhnə masa, bir neçə sınıq-salxaq stul qoyulub. Masanın üstünə qəzet sərilib, səliqəsiz şəkildə boşqablar, stəkanlar, qədəhlər düzülüb. Eyvanda divan, kitab dolabı var, yerə köhnə palaz sərilib. Divanda kimsə yatıb. Üstü adyalla örtülüb. Ayaz həyət qapısından daxil olur. Əlində bir neçə pivə butulkası və bazarlıq torbası var. Həyətə baxıb üz-gözünü turşudur. Əlindəkiləri masanın üstünə qoyub, pivə butulkalarından birini açır. Aya baxıb danışmağa başlayır.*

AYAZ: (*pivə butulkasını qaldırır*) Şərəfinə, üzü xallı gözəl Ay! Gecə günahlarının müdrik şahidi! İnsan əzabının susqun yoldaşı! Səni sevirəm!

*Ayaz butulkanı başına çəkir. Ağzını silir. Yüksək səslə danışmağa başlayır.*

Adı "Ay"la başlayan qızları da... Ahh, haradasınız indi Aysellərim, Aynurlarım, Aygünlərim... Ömrümə ay kimi doğmuş nazəndələr! (*divanda yatan adama tərəf baxır,*

*səsini alçaldır, şəhadət barmağını dodaqlarına qoyur, divana tərəf işarə edir*) Tsss... bu, eşitməsin... Öz aramızdır, elə adı “Ay”la bitənlər də pis deyildilər. Günaylar, Nuraylar, Gilənaylar... Yox, Gilənay bir dənə idi, o da heç üz vermədi. Elə sifət elədi, elə bil Gilənay mənim adımdır.

*Butulkanı içib boşaltdıqdan sonra yavaşca ağacların arasına tullayır. Butulkanın arxasınca baxır. Sonra özünü arxası üstə çarpayıya atır, səmaya baxır.*

Ehh, aylar, aylar... Amma Ay bir dənədir. Cürbəcür əlavələrlə Aya qabırğa olanlar çox olsa da, o, bir dənədir. Necə gözəldir. Necə zərif. Tutqun işığı bədirlənmiş üzünə çox yaraşır. Adamı günaha çağırır lap... “Gəl, gəl” deyir, “gəl günaha bataq” deyir... (*dikəlib çarpayıda oturur*) İndi bu yiyəsizlikdə günahı mən haradan tapım? Ayın yanında üzüqara oldum. Günah birnəfərlik iş deyil. Günaha mütləq iki nəfər lazımdır (*gülür, divana tərəf danışır*) Səni saymasaq, bu gecə mən təkəm, tənhayam... Hmm... (*ayağa qalxıb masaya yaxınlaşır, bir pivə götürüb açır, başına çəkir*) Pivə? Çox da böyük günah deyil əşi. Bununla Ayın tələblərinə cavab vermək olmaz. (*həyətdə gəzişir, cibindən siqaret çıxarıb yandırır, bir-iki qullab vurur*) Buna da yaman aşiq olmuşam. Elə bil, adı Siqaraydır (*gülür*) Yox, siqaret də ağır günahlardan deyil. Onu söhbətə qatmağın mənası yoxdur...

*Pivə içə-içə masanın altındakı topu çıxarıb qapıya qol vururmuş kimi iki ağac arasından bağa atır. Möhkəm səs çıxır. Ayaz həyəcanla divana tərəf baxır. Sanki yatanı oyandırmaqdan qorxur. Yavaş səslə danışır.*

Futbolu da sevmədin də. Gül kimi oyundur. Elə bil meydanda təpiklənən sənsən. (*əlindəki butulkaya baxır)* Bunu da lap su yerinə içirəm... Təxminən iki gündür kəşf etmişəm ki, nə qədər pis vərdişim varmış. Çəkirəm, içirəm, söyürəm, axşama kimi yatıram, qorxuram... Ən ziyanlısı qorxmaqdır. (*əlindəki butulkanı sığallayır, qucaqlayır*) Bu butulkanı qırmaqdan belə qorxuram. Belə baxanda, cəhənnəmə qırılsın də, yox? Amma yenə qorxuram. Elə bil, ürkək ceyranam...

*Ayaz eyvanın sürahisinə söykənib divana tərəf baxır. Pivə içir.*

Heç gör qımıldanır? Dünya vecinə deyil də. Heç vaxt da vecinə olmayıb.

*Yavaş-yavaş masaya yaxınlaşır. Ortası olmayan stulu çəkib oturur. Gülməyə başlayır.*

Ortası olmayan stulda oturmaq hər oğlanın işi deyil e. Adamdan nə istəyir? (*divana tərəf, gülərək*) Sən yaxşı bilərsən belə şeyləri... Sən hər şeyi bilirsən e, amma biliyini bölüşmürsən... Sən mənimçün canlı ensiklopediyasan. Di gəl elmə məlum olmayan əlifbada yazılmısan, heç kim oxuya bilmir. Faydasız ensiklopediya (*gülür*) Həə, bir də bildiyini bəy babana vermirsən, o da ayrı mövzudur... Masanın üstünə bax. Gör nə günə qoymusan. Qonaqların vardı?

*Masanın üstünü yığışdırmağa çalışır. Qabları səliqəyə sala bilmir, hirslənir. Boşqabın birini ağacların arasına tullayır. Qırılan boşqabın səsini eşitməmək üçün əlləri ilə qulaqlarını tutur.*

Qırıldı? Kaş qırılmaya. Ora-bura atmaqdan evdə boşqab qalmayıb.

*Qulaqlarını açıb ağaclığa tərəf baxır. Başını bulayıb üç ayağı olan stulda oturur. Bir ayağı ilə dayaq verir ki, yıxılmasın.*

Bu stulun dördüncü ayağı mənəm. Yoxsa heç nəyə yaramır. Mən dayaq verməsəm, boşqabın dalınca bilinməz qaranlığa atılası əşyadır. Birindən soruşurlar ki, səni ayaq üstündə saxlayan iki şey nədir? Deyir ki, iki ayağım (*gülür*). Bu stul da deyir ki, üçü mənim, biri Ayazın ayağı (*gülür*). Ayaz demiş, özümü təqdim etmədim axı.

*Ağaya ayağa durub səhnə önünə gəlir. Üst-başını səliqəyə salır. Pivə butulkasını arxasında gizlədir.*

Hüzurunuzdakı bu yaraşıqlı oğlanın, yəni mənim adım Ayazdır. Şaxtalı bir qış günü doğulmuşam. Atam da doğum evinin qarşısında çox dayanıb, gəlmək bilmirmişəm, sanki bu dünyanın çox da yaxşı yer olmadığını hiss edirmişəm (gülür), hə, demək çox dayanıb, çox üşüyüb, götürüb hikkəsindən adımı Ayaz qoyub. Vəssalam. Əslində atam çox üşüyüb, çox əsəbiləşməsəydi, yəqin ki, adım Ayaz olmayacaqdı, məsələn, Keyqubad ola bilərdi, tarixi çox sevirdi atam. Yaxşı ki, çox üşüyüb, çox əsəbiləşib. İlk dəfə bəxtim onda gətirib. Belə. Ciddi bir hekayəsi yoxdur adımın. Elə özümün də. Həyatım roman olacaq həyatlardan deyil... Bəlkə bundan sonra. Bəlkə yeni həyatımda. Buxovsuz, qandalsız yepyeni həyatımda... Amma köhnə mənlə yeni həyat mümkün olmayacaq. Bunu başa düşürəm. Ya özümü dəyişdirməliyəm... ya da dəyişdirməliyəm özümü. Başqa yolu yoxdur... (*fikirli*) Düzdür, başqa bir dünyanın olduğuna inanıram. Amma bu dünyadan qurtulmaq üçün intihar etməyəcəyəm. Bu qurtuluş o boyda günaha dəyməz... (*ətrafa baxır, yavaş səslə*) Heç bu ev də intihar ediləsi yer deyil. Ölüm üçün gözəl yer seçilməlidir. Gözəl yaşaya bilmədik, barı gözəl ölək. (*çarpayıda oturur, diavana tərəf işarə edərək*) Ölüm şahidin də hələ bu ola. Lap biabırçılıq. (*ətrafa baxır*) Şahid cəhənnəmə. Yer gözəl olmalıdır, məncə. Bura bizim bağ evimizdir. Bağ e özü də. Həyətdə üç-dörd qotur üzüm var, bir-iki əncir, nar, sapsarı qum... (*quyunu göstərir*) budey, bir dənə susuz quyu...bu divandakı qazıb nə vaxtsa... nə vaxt tikildiyi məlum olmayan bu daxma, cırıltısı başıma düşən taxta qapı, əyri çəpər... qəribə qonşular... Amma dəniz və səma var – bu uçuq dünyanın yeganə sərvəti. Guya ancaq bizimdir (*gülür*) ...Bizim münasibətlərimiz də elə bu bağ evi kimi sınıq-salxaq idi. (*divana tərəf*) Yadındadır? Əlbəttə, yadındadır. İnsan öz yaratdığını unuda bilməz... Yenə burada dəniz var, səma var. Bu uçuq bağı nəyəsə oxşadır. Bəs bizim münasibətlərimizi nə dəyərli edə bilərdi? Bizə yaraşmazdı dəniz-məniz. Bizimki yaralı bir iz... irinli bir yara...

*Musiqi səslənir. Ayaz eyvana çıxır. Kitab dolabından bir kitab götürüb həyətə düşür. Çarpayıda dirsəklənir. Oxumağa başlayır.*

Səndən mənə qalan sadəcə uçuq-sökük xatirələr deyil, bir də bu kitablar və kitab sevgisidir. Biri olmadan o birinin əhəmiyyəti yoxdur. (*divana tərəf*) Bilirsən, nə oxuyuram? “Dünya xalqlarının nağılları”nı (*gülür*) Mən indi də nağıl oxumağı sevirəm.

Nağıllar gözəldir, ümidlidir. Əzbər bilirdim bütün nağılları. Cizgi filmlərinin hər sanyəsi ağlımdaydı. Kitabla cizgi filmi arasında fərqləri tapardım. Şahzadə qızlara aşiq olardım. (*dikəlib çarpayıda oturur, kitabı örtür*) O vaxt elə bilirdim, mən kimi sevirəmsə, o da məni sevir... Amma səndən bilməliydim axı belə olmur. Uşaq ağlıdır də. Kəsdiyi o qədərdir. (*divana tərəf*) Sənə bir sirr açım. Çox şey kimi bunu da bilmirsən. Uşaq vaxtı bir nağıl uydurmuşdum. Öz nağılıma da möhkəm inanmışdım. Hələ yazmağı bilmirdim, yadımda saxlayırdım ki, yazmağı öyrənən kimi nağıl kitabı yazacağam. (*kədərli*) "Ay və ata" idi nağılın adı. Guya bir gün Ay göydə yellənməkdən bezib yerə düşəcəkdi. Bizim eyvana gələcəkdi. Pəncərədən xəlvətcə bizə baxacaqdı. Görəcəkdi ki, mən ağlayıram, anam deyinir, sən qışqırırsan... Sonra sən qəfildən Ayı görəcəkdin, onun gözəlliyindən dilin tutulacaqdı, səsin batacaqdı, bir daha qışqıra bilməyəcəkdin. Uşaq vaxtı ən böyük dərdim sənin qışqırmağın idi. (*kövrək*) Ayın möcüzə yaradacağına necə inanırdım! O möcüzəni çox gözlədim, ata... O möcüzə baş vermədi... (*əlindəki kitaba baxır*) Dünyanın heç bir xalqının heç bir nağılı mənim reallığımı – səni gizlədə bilmədi. Bu nağılların içində gizlənməyə çalışdım, olmadı. Səsini dərin mağaralarda, qaranlıq quyularda, Qaf dağının quş uçmaz zirvələrində... hər yerdə, hər yerdə eşidirdim. Qulaqlarımda cingildəyirdi səsin, əks-səda verirdi. (*əlləri ilə qulaqlarını tutur*)

*Kitabı çarpayının üstünə atır. Ayağa qalxıb həyətdə gəzişməyə başlayır. Sonra eyvanın sürahisinə söykənib divana tərəf baxır.*

Özünün qorxuncluğun azmış kimi hələ utanmaz-utanmaz Allahla da qorxudurdun məni. Deyirdin ki, sözümdən çıxsan, Allah baba səni yox edər. Mən çox qorxurdum. Altı yaşlı uşağı gözəgörünməz varlıqla qorxutmaq vicdansızlıq deyildi? Onsuz da səndən qorxurdum də. Azlıq edirdi sənə? Allahı niyə məsələyə qatmışdın, bilmirəm. Niyə axı inanırdın ki, bizim davamızda Allah sənin tərəfini tutacaq? Bəlkə ona görə haqlı olan məniydim – 6 yaşlı uşaq? Anlamadığım ölümlə məni niyə sınağa çəkirdin? Yox olmaq niyə mənə qorxulu görünürdü axı, anlamıram. Yaşadığım altı il nə qədər dəyərli olmuşdu mənimçün? Beynimizdədir hər şey. Mənə genlərinlə ötürdüyün bütün o dırnaqarası gözəllikləri bir-bir yaşadım. (*gülür*) Sən bilmirsən... bəlkə də bilirsən, anam hirslənən kimi mənim toxumuma söyürdü. O vaxt anlamırdım nə toxum, hansı toxum?

Mənim bildiyim almanın içindəki toxumuydu... Bax bu gün, Allahdan qorxmadığım bu günlərdə onunla çox mehribanıq. Bir-birimizi başa düşürük. Sən boş yerə aramıza giribmişsən. Sənin dediyin kimi qorxulu deyil. Səndən fərqli olaraq, hətta yaşamağa da mane olmur. (*masanın üstündə oturur*) Görürsən, masada otururam, amma o hirlsənmir, qulağımı çəkib: "eşşək balası" demir, masanın çörək yeyilən yer olduğunu xatırlatmır... Mənə elə gəlir ki, öz əməllərimlə onu çox narahat etmirəm. O, çox sakitdir. Səsini eşitməmişəm. Amma mən üsyankaram. Arada onun üzünə qayıdıram. Nə qədər olmasa, o, yaradandır axı. O, çox güclüdür. Gücündən istifadə etmədiyi üçün bəzən onu qınayıram. Ondakı güc məndə olsaydı... daha doğrusu, onun yerində olsaydım və onun gücü məndə olsaydı, daha ədalətli olardım. "Daha ədalətli" nə deməkdir, onu da bilmirəm, düzü. Daha ədalətli olmaq necə olur, məsələn? Xeyir həmişə şərə qalib gəlir? Müharibələr olmur, uşaqlar ölmür, çiçəklər heç solmur? Qabil Habili quyuya atmır, Məcnun çöldə ceyranla, Leyli evdə şamla danışmır? Haqq-nahaqq olmasaydı, min illərdi yaranan hekayələr də olmazdı. Biz nədən danışardıq, kimə yanardıq? Nə bilim, gözəgörünməzin işlərindən baş açmaq çətin məsələdir.

(*əlləri cibində, həyətdə gəzişir*) Düzü, bəzən o qədər bəxtim gətirir ki, özümü Allahın bacısı oğlu kimi hiss edirəm. Sanki görünməz bir dayı əli məni qoruyur, yollarımı açır, məni bu həyata tapşırır. (*divana tərəf, gülərək*) Amma yeznə çətin məsələdir də. Yeznə qohum-əqrəba arasında yeganə məxluqdur ki, heç nə edə bilmirsən, bacının günü qara olmasın deyirsən. Yeznə də bundan istifadə edir. Alçaq oğlu alçaq. Bir dostum var, həmişə deyir ki, yeznələr üç cür olur: saz yeznə, qaz yeznə, paz yeznə. Bax sən Allahın paz yeznəsisən (*gülür*).

*Masadan bir pivə butulkası götürüb açır, içməyə başlayır.*

Öz aramızdır, sənin Allahla aran yaxşı deyildi. Onun dalınca danışırdı. Niyə sənə elə gəlirdi ki, dodaqaltı söyəndə o eşitmir? (*gülür*) O qədər var-dövlətin vardı, şan-şöhrətin dillərdə dastan olmuşdu. Evdə Əzrayıl, çöldə Cəbrayıl idin... Amma bir qadının çıxıb getməsini həzm edə bilmədin. Onsuz da sevmirdin! Niyə mənim də, Allahın da, qohum-əqrəbanın da zəhləsini tökürdün! O qadın sənin əlindən bezib qaçmışdı. Sənin səsinin çatmadığı yerə qədər qaçıb getmişdi. Amma sən özünü elə aparırdın ki, elə bil gecə-

gündüz ovcunun içində bəslədiyin sərçə balası uçub gedib, sən də yanıb-tökülürsən. Sanki hər gün bir bəhanə tapıb sözlə döydüyün qadın deyildi gedən. (*qışqırır*) Mən günahkar deyildim, ata! Amma sən bütün acığını məndən çıxdın! Anam bir anda qeybə çəkildi, mən dərk etmirdim nə baş verir. Anam sadəcə itdi bir gün. Bir onu xatırlayıram ki, anamı görməməyə başlamışdım. Çağırırdım, çağırırdım, hay verən olmurdu. Sanki su idi, havaya buxarlanmışdı. (*divana tərəf*) İstəyirsən, öz versiyamı deyim? Məncə, anamı, sənin arvadını bax bu quyu udub! (*quyunun ətrafında fırlanmağa başlayır*) Mən öz nağıllarımda Məlikməmməd olub bu quyuya düşürdüm, anamı divin əlindən xilas edirdim. Fikirləşirdim ki, bu, niyə sənin ağlına gəlmir. Sən nəhəng adamsan axı, asanlıqla divi öldürər, anamı quyudan çıxara bilərdin... (*fikirli*) Əgər div aparmayıbsa anamı, onda qadın sadəcə intihar edib. Gözlərini yuyub, atıb özünü bu quyuya. Əgər anam... Anam da elə sənin tayın idi. Ana da uşağını öz komfortuna qurban edərmi? Gedirsən, uşağını da apar da. Bilə-bilə ki necə bir canavarın ümidinə qoyub gedir... Bəlkə də sən özün atmısan anamı quyuya, hə? Dünyaya iliyinə qədər nifrət edə bilmək üçün özünə səbəb düzəltmisən. Necə gözəl rola girmişdin! Hamı sənin böyük məhəbbətindən danışırdı (*gülür*) Gözlərini sulandırıb elə danışırdın, az qalırdı sorğu aparan polislər də ağlasın... böyüyəndən sonra anladım bunları...

*Ağaclara tərəf gedir. Ağacların ətrafında bir az gəzişir.*

Bu narları anam əkmişdi, əncirləri sən. Ağac əkməkdə də yarışırdınız. Kimin ağacı daha çox bar verəcək. Heç biri də bar vermədi. (*qəhqəhə çəkir*) Əkdiyiniz uşaq kimi barsızdırlar, faydasızdırlar. Əkdiyiniz heç nə tutmadı... (*kədərli*) Bəlkə də anam itməsəydi, barımız olacaqdı...

*Ağaclığa atdığı butulkanı və boşqab qırıqlarını yerdən götürüb baxır.*

Bir qadının yoxluğu iki kişinin həyatını məhv etdi. Bu boşqab kimi boş başlarımız darmadığın oldu. Sən də bilirdin bunu. Bütün qəddarlığınla, zalımlığınla dərk edirdin bayquş kimi tək qaldığını. Zalımlığı göstərmək üçün mütləq kimsə lazımdır axı. Həyatlarımızı bu boşqab kimi qırıb dəyərsiz etdin, ata... (*çarpayıda oturur, çarəsiz*) Qadını o qədər sevmədin ki, mənim məktəbə getməyimi belə gözləmədi. Çantamı aldı, kitablarımı, dəftərlərimi, qələmlərimi çantama yığdı. Həmin yay mənə yazmağı öyrətdi

və getdi. Mənə öyrətdiyi yeganə şeydir yazmaq. Mənim indi də xəttim yaxşıdır. Anam belə öyrədib. Onun yoxluğunu dərk etdiyim gündən dəftərin kənarındakı qırmızı xətti o tərəfə keçmədim. Elə bilirdim, haradansa mənə baxır, qırmızı xətti keçdiyim üçün mənə hirslənəcək...

(*divana tərəf*) Bəs sən nə öyrətmişdin mənə? (*atasını yamsılayır*) "Heç kimdən qorxma!" Bu söz həm də "Ancaq məndən qorx!" demək idi. Mən bu dünyada sadəcə səndən qorxdum, həqiqətən də. Bir də o susuz quyudan. O quyu da səndən qorxub su vermədi, bilirsən? Suyu olsaydı, gündə neçə dəfə başını xarab edəcəkdin.

Ehh, ata, sevməyin gözünə girsin, barı qadına hörmət edəydin. Ona görə yoxa çəkildi. Bəlkə başını götürdü getdi, bəlkə sevgilisi vardı, ona qoşuldu getdi, bəlkə də ölüb getdi. Bütün hallarda o getdi. Qaldıq sən və mən – şirinlər! (*gülür*) Yolda-zadda görən olanda deyirdilər ki, heç sizə oxşamır oğlunuz, hirslənirdin, tez deyirdin ki, üzdən anasına oxşayır, xasiyyətdən mənə. Çox düz-əməlli xasiyyəti olan adam kimi də (*gülür*).

*Ayaz ayağa qalxıb həyətdə gəzişməyə başlayır. Yeni pivə butulkası açır.*

Qadını hörmətsizlik qədər heç nə yıxa bilməz. Bilirdin bunu. Bilə-bilə, qəsdən edirdin. Sən hər şeyi bilirdin. Bir anamın gedəcəyini bilmədin. Görmədin. Yekəxanalığın gözünü elə örtmüşdü ki, qadının nə fikirləşdiyini hiss etmədin. Sevmədiyin halda onun getməyi sənə od qoydu. (*qışqırır*) Səndən icazəsiz ağacdan yarpaq düşmüşdü axı!

*Ortası olmayan stulda oturur. Kövrək səslə danışır.*

Anam gedəndən sonra gözüm qalmışdı qonum-qonşunun, qohum-əqrəbanın  üzündə. Elə bilirdim, hamı hər şeyi bilir, sadəcə mənə demir. Nə vaxt gedib, hara gedib, niyə gedib? Suallarıma cavab axtarmaqdan yorulmuşdu balaca beynim. (*masanın üstündəki qəzetdən bir parça cırır*) Ağlım kəsəndən qəzet oxumağa başladım. Bəlkə orada bir xəbər taparam. Anam haqqında bir xəbər. Məsələn, belə bir xəbər. (*qəzet parçasında yazılanı oxumağa çalışır*) Sürət qatarı...gənc bir qadını vurub... Qadın piyadalar üçün təyin edilməmiş yerdən dəmiryol xəttini keçməyə cəhd edib. Qatar sürətlə gəldiyi üçün vaxtında əyləci basa bilməyib. (*divana tərəf*) Metaforu tutdun? Bax bu sürət qatarı

həyatın özüdür. Gənc qadın da mənzilbaşına tez çatmaq istəyən zavallı bəndə. Yazıq kəsə çıxmaq istəyib sadəcə.. Təyin edilməmiş, sözə bax e, təyin edilməmiş yerdən keçmək istəyib... Ehh, həyatla ancaq təyin edilmiş yerlərdə yarışa bilərsən. Bədbəxt qadın bunu bilmirmiş... (*qəzet parçasını yerə atır*)

Sonra bilirsən nə oldu, ata? Mən Ayı kəşf etdim. Ayın bənzərsiz gözəlliyi, sakitliyi, məsumluğu məni valeh etdi. İllərlə səmada ayı axtardım, onunla danışdım, şəkillərini çəkdim. Ayın solğun bənizində həmişə anamı gördüm – Aybənizi. Ay üzlümü gördüm... Bütün "Ay"lı qızlarda öz Ayımı axtardım. Mənim macəralarıma həmişə hirslənərdin. Amma səbəbini bilməzdin, soruşmazdın...

(*eyvana keçir, divanın qarşısında oturur, pıçıltı ilə danışır*)

Bağışla, çox danışdım, narahat elədim. Sənin zəvzək adamlardan zəhlən gedir. Qatdım-qarışdırdım hər şeyi. Andır qalmış butulkalardandır. Yoxsa sənin yanında bu qədər danışmağa ürək etməzdim. Bunlar boşaldıqca dilim açılır. Bağışla... (*fikirli*) Yəqin indi məəttəl qalmısan. Öz-özünə fikirləşirsən ki, xeyir ola, bu niyə qudurub... bu nə cəsarətdir belə! Anasına oxşamış nə ağzına gələni danışır, hə? (*sakit səslə gülür*) Xeyirdir! Sənə çox pis xəbərim var. Heç kimə demə, sən artıq yerindən tərpənə bilmirsən. Hi-hi-hi... Ömrüm boyu gözlədiyim o möcüzə baş verib. Ölmüsən! (*qışqırır*) Başa düşürsən? Sən ölmüsən! Sən ölüsən! Sən meyitsən! Və mən sadəcə sən öləndən sonra qudura bilmişəm! (*isterik gülüş*)

*Həyətə enib qışqıra-qışqıra fırlanmağa başlayır. Təyyarəni imitasiya edir.*

Sevincimi gizlədə bilmirəm, gizlətmək də istəmirəm. Bu gecə də eşitsin, göydə ay da eşitsin, barsız əncirlər, bəhərsiz narlar, o susuz quyu da eşitsin – mənim qorxum ölüüüüb!

*Bir neçə dəfə fırlanıb dayanır. Eyvanın sürahisinə söykənir. Üzünü divana tərəf tutub danışır.*

Bəzən qorxuram ki, ölümün yalan olar. Sevincim gözümdə qalar. Muradıma çatmaram. Dünəndən bəri neçə dəfə yoxlamışam. İnanmağım gəlmir. Axı mən səni ölümsüz bilirdim. Güclü bilirdim. Elə bilirdim, güclü adamlar ölmürlər. (*duruxur*) Qoy bir də yoxlayım. Sənə heç etibar yoxdur. Özünü bicliyə qoya bilərsən. (*eyvana çıxır, adyalın üstündən meyiti yoxlayır*) Yox, buz kimisən. Elə diri olanda da buz kimiydin, bir təfavüt görə bilmirəm. (*gülür, havanı qoxulayır*) Amma hələ qoxumursan. Buna sevinirəm.

*Həyətə enir. Bir az gəzişir. Fikirlidir. Divana tərəf baxır.*

Demək, bu kişi öldü. Çox gözəl, çox pakizə. Lap əla. Bəs mən indi nə edəcəyəm? Mən post-ata dövrü haqqında heç fikirləşməmişəm axı! (*laqeyd*) Nə edəcəyəm e. Cavan oğlanam. Yaraşıqlıyam özümə görə. Evim var, bağım var, quyum var (*gülür*), kimi istəsəm, içinə ata bilərəm. (*divana tərəf*) Bəlkə elə səndən başlayım? Qoy "Əlifba" kitabında bizdən yazsınlar: "A hərfi. Ayaz atasını atdı quyuya". (*gülür*)

*Eyvana çıxır. Divanın qarşısında oturur. Başını meyitə söykəyir.*

Uşaq vaxtı o qədər istəyirdim ki, başımı çiyninə söykəyib sakitcə oturum. Amma sən qovurdun məni. "Baş söykəmək arvad işidir – deyirdin, özünü kişi kimi apar, deyirdin"... (*kədərli*) Ata, indi ürəklə sənə söykənə bilirəm. Yenə soyuqsan. Heç olmasa, indi qaldır o buz kimi əlini başıma sığal çək, ata. Sən heç bilmədin, saçım yumşaqdı, yoxsa cod. Heç bilmədin, boyum nə qədərdir. Heç bilmədin, hansı yeməyi xoşlayıram. O qədər qorxurdum ki, nə bişirsən, yeyirdim. Heç vaxt məndən soruşmadın, sənə nə bişirim. Sən mənə həm ana, həm ata olmalıydın. Sən heç düz-əməlli ata ola bilmədin.

*Yavaş-yavaş qalxıb həyətə düşür. Masaya yaxınlaşır. Pivə butulkasını açıb içməyə başlayır.*

Ehh, niyə indi öldün, ata? Sabah mənim ilk sərgimdir axı. Ölməyə vaxt tapdın? Bəlkə də elə qəsdən öldün, başqa cür mane ola bilmədin, dedin, ən yaxşısı, elə ölüm. Mənim ən xoşbəxt günümü yasa çevirmək üçün əlindən gələni etdin... Mənim sənətimi sevməsən

də, yanımda olmağını istəyirdim. Bəlkə insanların təqdirini görüb sən də mənimlə qürur duyardın. Heç bilirsən, nə qədər şəkil satmışam. Sifarişlərim çoxalır. Xaricə dəvət edirlər. Deyirlər ki, mənim fotolarım hamının görmədiyi həyatı göstərir. Yaxşı pul qazanıram. Amma sən yıxıldın öldün. Qəfildən.
(*stulda oturur, divana tərəf*) Sənə isti deyil? Bəlkə adyalı götürüm? Ya da yox, heç olmasa, indi canın bir az isinsin, buzun ərisin... (*Aya baxır*) Çox laqeyd görünürəm, hə? Atam ölüb, mən pivə içirəm, sərgiyə hazırlaşıram. Nə edə bilərəm? Ölüb ölüb də. Mən fotoqraf adamam. Həyatın reallıqlarından qorxmuram. Heç axına müqavimət də göstərmirəm. Bir də ki mənim vicdanım təmizdir. Onu mən öldürməmişəm. Zəng elədi, "tez gəl" dedi... Mən də soruşdum ki, neynirsən məni bu qaçaqaçda? O da dedi ki, bir dəfə yaralı barmağa dərman olmadın. Tez gəl! Bağırdı. Bağırdığı üçün də mən tələsmədim. Yavaş-yavaş gəldim. Taksi də çağırmadım. Avtobusu gözlədim. Bütün xanımlara yol verdim, birinci minsinlər avtobusa. Üç avtobus göndərdim. Dördüncüyə də könülsüz mindim. (*divana tərəf*) Eşidirsən? Səninlə görüşü bacardığım qədər gecikdirdim... Görəsən, son nəfəsinə çatsaydım, mənə nə deyərdin? Bəlkə böyük bir sirr açardın mənə. Məsələn, deyərdin ki, mən sənin oğlun deyiləm! O qədər sevinərdim! (*gülür, stuldan qalxıb çarpayıda oturur*)
Mən gəlib çatanda eyvanda yıxılmışdın. Qaldırıb divana uzandırdım. İki dəfə sakitcə "ata, ata" dedim. Gördüm eşitmirsən, bildim ki, ölmüsən. Üstünü adyalla örtdüm. Vəssalam. Tez gəlsəm, guya nə edə bilərdim. Sən ya infarkt olmusan, ya ilan çalıb, ya da kimsə boğub. Heç baxmadım da. (*divana tərəf*) Bəlkə baxım? Ürəyim lap sakit olsun. İndi baxam görəm ki, nəfəsin gəlir. Qorxudan ürəyim partlayar. Dünən axşamdan beləcə oturmuşam səninlə. Nə mən danışıram, nə sən. Acmışdım, getdim yüngülvari bazarlıq etdim, pivə də aldım. Sənin öldüyünə əmin olduğum üçün aldım də, yoxsa nə vaxt görmüsən sənin yanında pivə içim. (*butulkanı başına çəkir*) Bir dəfə də bokaldan içəcəyəm. Mədəni oğlanam mən.

*Qalxıb masaya yaxınlaşır. Təmiz bokal axtarır. Pivəni bokala süzüb içməyə başlayır.*

Həə, ağsaqqal, necə edək? İndi hay salsam, camaat tökülüb gələcək, həkimlər, polislər... aləm dəyəcək bir-birinə. Sabah sərgim var. Sənin mənasız ölümün mənim bayramımı

heç edə bilməz. Ya səni burada divanda qoyub getməliyəm, ya da özümlə aparmalıyam. Sərgidən öncə səni tapsalar, məni də tapacaqlar. Yenə günüm zay olacaq. Aparsam, qonşular görəcək. Sorğu-sual. Bəlkə səni quyuda gizlədim? (*gülür*) Sərgini yola verim, gəlib çıxararam. Səni quyuya atsam, heç kimin xəbəri olmaz. Ta ki quyuda qamış bitənə, çoban gəlib bu qamışdan tütək düzəldənə, o tütəyi çalana, tütək də quyunun dibində bir əmicanın oturduğunu oxuyana qədər... (*gülür*) Mən o qamışın yerinə olmaq istərdim, ata. Bir tütək olub yanıqlı-yanıqlı oxumaq istərdim. (*kədərli*) Məni dinləsinlər istərdim. Sən tütək səsinə qulaq asmağı sevərdin. Musiqini sevərdin. Su səsini, at səsini, motosiklet səsini. Bütün səslərə qulaq kəsilərdin, qaşlarını oynadardın. Məni o qədər dinləmirdin ki, elə bilirdim, səsimdən xoşun gəlmir. Uşaq ki uşaq. Ağlıma nələr gələrdi... Ehh, o tütək çalınana qədər bu bağı satacağam, ata. Bu bağ bizə xoşbəxtlik gətirmədi. Görüm hələ səni qaldıra bilirəm. Ağır adamsan axı, hər iki mənada!

*Eyvana çıxır. Meyiti güc-bəla ilə çiyninə atıb quyunun yanına gətirir.*

Deyirəm də, daş kimisən. Həmişə mənə yük olmusan. Həmişə sənin zibilini çəkmişəm. Məncə, sənin ağırlığın xasiyyətinin ağırlığıdır, çəkindən deyil.

*Sonra quyunun ağzını açıb içinə boylanır. Meyitlə danışır.*

Görəsən, çox dərindir bu? Qaçıb çıxmazsan oradan? Əvvəl-axır qazdığın quyulardan birinə düşməliydin də. Tapan olsa, deyəcəyəm ki, yəqin quyunu təmizləmək istəyəndə düşüb. Mən də nə vaxtdır onu axtarıram. Planı gördün? Ağılda-kamalda sənə oxşamışam!

*Meyiti çiynində gətirib yenidən divana uzadır. Adyalı düzəldir.*

Bilirəm ki, nəsə etmək lazımdır adam öləndə. Amma mən bacarmıram. Üzrlü say. Hansı məzhəbə qulluq elədiyin də bəlli deyildi onsuz da.

*Həyətə düşür. Çarpayıda uzanır.*

Səni burada qoyub gedəcəyəm, incimə. İçəri qoyaram. Yatağına uzandıraram. Üstünü də örtərəm. Vəssalam. Sərgi iki gün olacaq. İki gündən sonra gələrəm. Guya əvvəldən xəbərim yoxdur, indi görmüşəm, möhkəm hay-küy salaram. Camaat gələr, kömək edər. Mən hətta ağlaya bilərəm. Belə. (*dikəlib oturur, divana tərəf*) Bilirsən, sərgimin adı nədir? "Ay və ata". Orada çoxlu fotoların var. Çoxundan xəbərin yoxdur. Aparatı düzəltmək bəhanəsilə müxtəlif rakurslardan şəkillərini çəkmişəm. Rəngli, ağ-qara. Şəkillərdə yaxşı adama oxşayırsan... Yorğun, kədərli, qəzəbli yaxşı adam... Bir də Ayın şəkilləri var. Müxtəlif fəsillərdə, havalarda, saatlarda. Ay bənizli qadına həsr etdiyim şəkillərdir əslində. O qadını çəkmək mənə nəsib olmadı. Bəlkə də haradansa məni izləyir. Və bilir ki, o gözəl şəkillərdəki gözəllik özüdür... (*həyətdə gəzişməyə başlayır, masadakı sonuncu pivə butulkasını götürüb açır)* Bax bu uçuq bağın şəkilləri də var. Buradakı hər yarpağın. O qaranlıq quyunun belə. Ay, sən və əşyalarımız. Bir mən yoxam o şəkillərdə, ata. Mən ancaq sənin gözlərində görünürəm. Onu da hər adam görmür...Çox istəyirdim ki, sərgimə gələsən. Sevimli göy kostyumunu geyinəsən, qalstukunu taxasan, saç-saqqalını darayasan. Salonun mərkəzində dayanıb fəxrlə sağa-sola baxasan. Fotolardakı xarizmatik kişini tanıyan tamaşaçılar sənə yaxınlaşsınlar, şəkil çəkdirsinlər. Sən də bığaltı gülümsəyəsən. Mənə baxanda gözlərin parıldasın... O gözlər bir daha mənə baxmayacaq. Əbədi yumulan gözlərinin əbədi yuxusu şirin olsun, ata...
İnanıram ki, bir gün haradasa görüşəcəyik. Üzümə gülümsəyərsən, başımı sığallayarsan, soruşarsan ki, sənə nə bişirim? Başqa heç nə istəmirəm, ata... başqa heç nə... (*eyvana çıxır, divana yaxınlaşır*) Heyif, çox heyif. Bax indi yandım ölümünə. O anla bağlı nə gözəl xəyallar qurmuşdum! Sən hamı toplaşandan sonra ağır-ağır tribunaya yaxınlaşırsan, mikrofonu götürürsən (*eyvanın ortasında üzü tamaşaçılara tərəf dayanır, əlindəki pivə butulkasını mikrofon kimi tutub danışmağa başlayır*) və gur səslə qonaqları salamlayırsan: "Ay və ata" sərgisinə xoş gəlmisiniz!"

*Pivəni başına çəkib, tamaşaçılara baş əyir.*

PƏRDƏ